AZƏRBAYCAN RESPUBLİKASI

BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ

S Ə R Ə N C A M I

№ 118 «27» May 2016 - cı il

**Binəqədi rayonu Novxanı, Goradil və Fatmai dəniz çimərliklərində əhalinin 2016-cı ildə yay istirahətinin təşkili haqqında**

Bakı Şəhər İcra Hakimiyyəti başçısının "Bakı şəhər çimərliklərində əhalinin yay istirahətinin təşkili" haqqında 28.04.2016-cı il tarixli 165 saylı Sərəncamının icrasını təmin etmək məqsədilə, Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamənin 4.10.1-ci və 6.8-ci bəndlərinə əsaslanaraq

Q Ə R A R A A L I R A M :

1. Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Yəhya Əliyevə, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Elman Dadaşova, Rayon təsərrüfatı şöbəsinin müdiri səlahiyyətlərini müvəqqəti icra edən Elşad Rəhimova ,Binəqədi Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Fədai Hacıyevə və Rayon Təxirəsalınmaz Təcili Tibbi Yardım Stansiyasının həkimi H.Əhmədova tapşırılsın ki, çimərlik mövsümünün başlanması ilə əlaqədar 15 iyun tarixinə çimərlik zonalarının tam hazırlığını, orada xilasetmə, ticarət, iaşə və digər

xidmətlərin, təcili yardım məntəqələrinin təşkili işini başa çatdırılmasını təmin etsinlər.

2. Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Rayon təsərrüfatı şöbəsinin müdiri səlahiyyətlərini müvəqqəti icra edən Elşad Rəhimova, Binəqədi Rayon MKTB-nin rəisi Azər Məmmədova tapşırılsın, Binəqədi Rayon Bələdiyyəsinin sədri Sitarə Cabbarlıya tövsiyə edilsin:

- Çimərlik ərazisi və sahilyanı zonanın abadlaşdırılması habelə təmizliyinin qorunması, çimərlik zonalarında əhalinin səmərəli istirahəti üçün lazımi şəraitin yaradılmasını təmin etsinlər;
- Çimərliklərin yay mövsümünə hazırlığının yoxlanılması əsasında, əhalinin və qonaqların sahilyanı zonada səmərəli istirahətinə lazımi şəraitin yaradılması üçün müvafiq tədbirləri müəyyən edib, onların həyata keçirilməsi təmin etsinlər;
- Əhalinin dəniz sahilində maneəsiz istirahətinin təmin edilməsi üçün hüquqi və fiziki şəxslər tərəfindən öz aralarındakı sərhəd boyu çəkdikləri hasarların sahildən 20-25 metr məsafəyə qədər arxaya çəkilməsini təmin etsinlər;
- Çimərlik ərazilərinin və sahilyanı zonaların təmiz saxlanılması və məişət tullantılarının vaxtlı-vaxtında daşınmasına nəzarəti gücləndirsinlər.

3. Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Yəhya Əliyevə, Rayon təsərrüfatı şöbəsinin müdiri səlahiyyətlərini müvəqqəti icra edən – Elşad Rəhimova və Binəqədi Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Fədai Hacıyevə tapşırılsın ki, hüquqi və fiziki şəxslərə ayrılmış çimərlik zonalarında mövsümə hazırlıq ilə əlaqədar təmizlik və abadlıq işlərini xüsusi nəzarətə götürərək və lazımi tədbirləri həyata keçirsinlər.

4. Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Yəhya Əliyevə tapşırılsın, Binəqədi Rayon Bələdiyyəsinin sədri Sitarə Cabbarlıya tövsiyə edilsin ki,

əhalinin çimərlik ərazilərinə və sahilyanı zonalara ödənişsiz girişini təmin etsinlər.

5. Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Yəhya Əliyevə və Binəqədi Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Fədai Hacıyevə tapşırılsın ki, "Sanitar-epidemioloji sağlamlıq haqqında" qanuna uyğun olaraq, çimərliklərdə sanitar-gigiyena qaydalarına ciddi əməl edilməsinə nəzarət etsinlər.

6. Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Hüquq şöbəsinin müdiri Yünis Hüseynova və Binəqədi Rayon Polis İdarəsinin rəisi Namiq İsmayılova tapşırılsın ki, çimərliklərin ərazisində ictimai asayişin qorunmasını təmin etsinlər.

7. Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Yəhya Əliyevə, Binəqədi Rayon Fövqəladə Hallar və Mülki Müdafiə Şöbəsinin rəisi vəzifəsini icra edən İ.Məmmədova və Binəqədi Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Fədai Hacıyevə tapşırılsın ki, təhlükəli yerlərdə qeyri-qanuni fəaliyyət göstərən çimərlik ərazilərini müəyyən edərək burada xəbərdaredici lövhələrin quraşdırılmasını təmin etsinlər.

8. Binəqədi Rayon Bələdiyyəsinin sədri Sitarə Cabbarlıya tövsiyə edilsin ki, sahilyanı zonaların təmiz saxlanılması və tullantıların vaxtlı-vaxtında daşınmasını təmin etmək məqsədilə sahilyanı ərazilərdə xidmət göstərən hüquqi və fiziki şəxslərlə məişət tullantılarının yığışdırılması və daşınması barədə müqavilələr bağlanılmasını təmin etsin.

9. Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Rayon təsərrüfatı şöbəsinin müdiri səlahiyyətlərini müvəqqəti icra edən Elşad Rəhimova tapşırılsın, Binəqədi Rayon Bələdiyyəsinin sədri Sitarə Cabbarlıya tövsiyə edilsin ki, fiziki və hüquqi

şəxslər tərəfindən sahilyanı zonalarda fəaliyyət göstərən çimərliklər və onların göstərdikləri xidmətlər barədə məlumatları əks etdirən lövhələrin quraşdırılmasını təmin etsinlər.

10. Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının şöbə müdirləri, Binəqədi Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Fədai Hacıyevə və Binəqədi Rayon MKTB-nin rəisi Azər Məmmədova tapşırılsın, Binəqədi Rayon Bələdiyyəsinin sədri Sitarə Cabbarlıya tövsiyə edilsin ki, yay mövsümündə "2016 Formula 1 Avropa Qran Prisi" yarışları zamanı çimərliklərə gələn qonaqlara yüksək xidmət göstərilməsinə nəzarəti gücləndirsinlər və onların istirahətinin təşkili üçün tədbirlər müəyyənləşdirsinlər.

11. Sərəncamın icrasına nəzarət Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılova tapşırılsın.

**Xaləddin İsgəndərov**

SƏNƏDLƏR ÜÇÜN

**ƏSLİ İLƏ DÜZDÜR**

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**

**Elnur İmanov**

**№ 122**